# KİTABXANALAR: MƏDƏNİYYƏTİMİZİN BÖYÜK NAİLİYYƏTİ
***(Kitabxanaya, kitaba, mütaliəyə dərin hörmətlə)***

***Briliant Sübhan qızı Hacıyeva***

*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu,*
*Kitabxana müdiri*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*kitabxana.elyazmalar@gmail.com*

***Açar sözlər:*** *elm, mədəniyyət, kitabxana, dəyərli mənbə, bilik xəzinəsi*
***Ключевые слова:*** *наука, культура, библиотека, ценный источник, сокровищница знаний*
***Keywords:*** *science, culture, library, valuable source, treasure trove of knowledge*

**Xülasə:** Qabaqcıl mütərəqqi simaların yaratdığı xatirələri, dəyərləri mənbələri özündə toplayan, hər zaman onu oxucuya təqdim edən kitabxanadan xeyirli nə ola bilər!... Bu gün dünyada gedən qloballaşma prosesində bütün ölkələr mədəniyyətlərini qoruyurlar. Kitabxana da mədəniyyətin ayrılmaz hissəsi, elmlər sisteminin ilkin mənbəyidir. Kitabxana bilik xəzinəsi, ona sahib olanlar dünyanın ən zəngin adamlarıdır.

**Резюме**: Что может быть лучше библиотеки, которая собирает воспоминания, ценности и источники, созданные прогрессивными деятелями, и всегда представляет их читателю!...В сегодняшнем процессе глобализации все страны сохраняют свою культуру. Библиотека также является неотъемлемой частью культуры и основным источником научной системы. Библиотека - настоящая сокровищница знаний, а ее владельцы - самые богатые люди в мире.

**Summary**: What could be better than a library that collects the memories, values, and sources created by advanced progressive figures and always presents them to the reader!... In today's globalization process, all countries are preserving their cultures. The library is also an integral part of culture, the primary source of the scientific system. The library is a treasure trove of knowledge, and its owners are the richest people in the world.

*"Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer,*
*mənəviyyat, bilik, zəka mənbəyidir".*
***Ümummilli liderim Heydər Əliyev***

*Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir.*

*Xalqımızın yarat dığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır.*
***İlham Əliyev***
***Azərbaycan Respublikasının prezidenti***

*"Kitabxanalar informasiya cəmiyyətinin ürəyidir."*
***(YUNESKO-nun bəyanatından)***

Aqillərin gəldiyi yekdil nəticə də budur ki, dünya yaranandan insanlar kitabdan yaxşı heç nə kəşf etməyiblər! Kitab, kitabxana hər bir xalqın mədəniyyət göstəricisidir, elmi-mədəni irsidir, əcdadlarının, ata-babalarının, böyük və görkəmli şəxsiyyətlərin, filosofların, mütəfəkkirlərin, alim-lə-

rin, yaradıcı ziyalıların ruhudur, onların gələcək nəsilə vəsiyyətidir. Xalqımızın fəlsəfi təfək-kürünün, mənəvi ruhunun, əxlaqi kamilliyinin məhsulu olan qiymətli kitabları "Avesta", "Kitabi-Dədə Qorqud", Nizaminin, Füzulinin, M.F.Axundovun, A.Bakıxanovun, N.Nərima-novun, S.Vurğunun, Heydər Əliyevin və başqa dahi şəxsiyyətlərin kitabları xalqımızın kitab mədəniyyəti xəzinəsi, həmişə qürur mənbəyi olub. Süleyman Rəhimov 1945-ci ildə dərc etdirdiyi məqalələrinin birində yazır: "Zəmanəmizdə kitabsız mədəniyyətdən və mədəni inqilabdan danışmaq olmaz! Kitab insan ağlının və əməyinin məhsuludur. Elm və sənətin hər hansı bir sahəsi öz inkişafı üçün kitabçılıq işinə minnətdardır...". Böyük filosoflar, şairlər və alimlər kitabla yaşayırlar. Nizami "Xəmsə" ilə, Tolstoy "Hərb və sülh" ilə, Sabir "Hophopnamə" ilə yaşayır. Kitab olmasaydı, bəşə-riyyətin böyük simaları ulduzlar kimi öz vaxtlarında parlayıb, sonra sönüb gedərdilər [2].

Kitab və kitabxana nurlu bir işıqdır. Kitabxana nuru daim yanaraq cəmiyyətin, insanların şüurunu, ağlını, yaşayışını nura qərq eləyən sönməz işıqdır. Kitabxanalar keçmiş və müasir milli mədəniyyətimizin mərkəzi, himayədarı və təbliğçisidir...Kitabxana işi xalqın ümumi mədəniy-yətinin yüksəldilməsi vasitəsi, kitabxanaçı pedaqoq, müəllim, bilikləri yayan, insanlara işıq bəxş edən bir şəxs, işıq və tərbiyə mənbəyidir. Azərbaycanda kitabxanaşünaslıq elminin banisi prof. A.Xələfov kitabxanaya belə bir tərif vermişdir: "*Kitabxana elmi informasiya, mədəniyyət, təhsil, tərbiyə müəsisəsi kimi çap əsərlərini, digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual mənəvi potensialı inkişafına kömək göstərən sosial institutdur".* Məntiqlə yanaşdıqda prof. A.Xələfov kitabxanaya verdiyi tərifdə ilkin olaraq "elm" sözünü təsadüfi qeyd etmir. Məhz elmin gücü ilə bütün sahələrdə uğurlar əldə olunur. Kitabxana elmlər sisteminin ilkin mənbəyidir. Daimi artan informasiya axını, sistemli olaraq məhz kitabxanalarda yerləşir və kitabxana işi fəaliyyəti vasitəsi ilə cəmiyyətin istifadəsinə verilir. Müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi kitab, kitabxana və mütaliə anlayış-larına yeni bir yanaşmanı zəruri etsə də, kitabın əhəmiyyəti heç də azalmayıb. Mütaliə xalqın şüurlanmasının əsas vasitəsidir.

Azərbaycan öz kitabxana işi ənənələrini uzun illərdən bəri böyük fədakarlıq və əzmlə davam etdirməkdədir. Bütün dünyada, o cümlədən Azərbaycanda kitabxanaçılıq sənətinin inkişafı XI əsrə aid edilir. Bu dövrdən başlayaraq möhtəşəm əsərlər qələmə alınmış, onların qorunub-saxlanılması üçün kitabxanalar yaradılmışdı. Azərbaycan kitabı kimi kitabxanalarının da tarixi zəngindir. İlk dəfə daha çox məhdud dairədə və şəxsi kitabxana kimi fəaliyyət göstərən belə mədəniyyət ocaqlarının kütləvi forması XIX əsrin sonlarında ortaya çıxdı. Bu ideyanı həyata keçirən isə görkəmli yazıçı-dramaturq, ictimai və dövlət xadimi Nəriman Nərimanov oldu. O, 1894-cü ildə Bakıda ilk ümumi açıq milli kitabxana-qiraətxananın əsasını qoydu. Bu, Azərbaycan xalqının ictimai-mədəni həyatında əhəmiyyətli hadisələrdən idi.

Azərbaycanda kitabxanaların inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xüsusilə qeyd etmək lazımdır ki, hələ müstəqilliyimizin ilk illərində çətin ictimai-siyasi bir durumda məhz Ulu öndər Heydər Əliyev, bütün sahələrə olduğu kimi, kitabxana sahəsinə də böyük qayğı və diqqət göstərdi. Dahi rəhbər kitabxanaya möhtəşəm məbədgah kimi baxırdı. Onun kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir deməsi həmin münasibətin təzahürü idi. Əlbətdə, alim də, aqil də məhz kitabxanadan bəhrələnən kəslər olmuşdur. Elə savad da, bilik də məhz bu kitabxanadan başlayır. Mübaliğəsiz qeyd edə bilərik ki, bu gün Azərbaycan kitabxana-informasiya sistemi Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində özünün çiçəklənmə dövrünü yaşayır. Onun kitabxana sahəsinə göstərdiyi diqqət və qayğı xalqın elmi, mədəni və intellektual səviyyəsinin daha da yüksəldilməsi, müasir dünya kitabxanası modelinə uyğunlaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir [1, s.12].

İstər maddi-texniki bazası, istərsə də peşəkar kadr potensialı ilə Azərbaycan kitabxana sistemi dünya kitabxana sistemi ilə ayaqlaşa bilir. Bu yüksək tərəqqi, çiçəklənmə dövründə minlərlə oxucu nəsli yetişir, ölkəmizin daha güclü inkişafı üçün zəmin yaranır. Müasir dövrdə kitabxana sistemi çox

gözəl qurulmuşdur. Buna nümunə olaraq Azərbaycanın mühüm əhəmiyyət daşıyan kitabxanalarını - *M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası, AMEA Mərkəzi Elmi Kitabxana, Prezident Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası* və digər ixtisaslaşmış kitabxanaları əminliklə göstərmək mümkündür [3].

Oxucu-kitabxana münasibətlərinə gəlincə, oxucu kitabxananın əsl dostu, kitabxana isə oxucunun çox sevdiyi müqəddəs bir yerdir. Məsuliyyət və yaradıcılıq, oxuculara nümunəvi xidmət fəaliyyətimizin əsasını təşkil edir.

Kitabxana xidmətini daha da yaxşılaşdırmaq, kitaba, mütaliəyə marağı artırmaq, gənc nəslin dünyagörüşünün formalaşmasında iştirak etmək kitabxanaçıların əsas vəzifələrin-dən biri olaraq qalmaqdadır. Oxucuların sorğuları rəngarəngdir. Müasir dövrdə oxucularla iş aparmaq böyük məsuliyyət və qayğı tələb edir. Oxucularla iş zaman və zəhmət tələb edən bir prosesdir. Bu prosesdə onların mütaliəsinə fərdi rəhbərlik kitabxanaların fəaliyyətinin əsas cəhətlərindən biridir. Bu iş onlarda mütaliə mədəniyyətinin tərbiyə edilməsi ilə əlaqədardır. Bu məqsədlə kitabxana işçiləri mütaliə prosesini istiqamətləndirir, oxucuya mütaliəyə yaradıcı və fəal münasibət hisləri aşılamağa çalışırlar.

Kitabxanalar hər bir dövrdə sivilizasiyanın, mədəniyyətin əsas atributlarından sayılmışdır. O, bəşər mədəniyyətinin hərtərəfli inkişafına xidmət etmişdir. Cəmiyyətin inkişafında baş verən ictimai-siyasi, sosial, inqilabi proseslər bilavasitə kitabxana işinə təsir göstərmişdir. Ona görə də böyük və qədim tarixi keçmişi olan xalqımız kitabxananı yüksək qiymətləndirmiş, onu sevmiş, qayğı göstərmiş, əsrdən-əsrə, nəsildən-nəslə qoruyub saxlamışdır.

Kitabxanalara dövlət qayğısı hər birimizi daha yaxşı çalışmağa, oxucuların tələbatını dolğun şəkildə ödəmək üçün bütün imkanlardan maksimum yararlanmağa sövq edir. Bu bizi vəzifəmizə daha məsuliyyətlə yanaşmağa ruhlandırır. Çalışırıq ki, bu nəcib işin öhdəsindən ləyaqətlə gələk, kitabxana sərvətinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılması, onların cəmiyyətdə təbliğ edilməsi, bəşəri dəyərlərə yiyələnilməsinə fəal yardım göstərək.

**Ədəbiyyat**


1. *Cəfərov A*. Azərbaycan kitabxana-informasiya sistemi zamanın fövqündə /A.Cəfərov // 525-ci qəzet. - 2023. - 18 oktyabr. - S.12.
2. https://azedu.az/az/news/30615-elmde-hec-bir-zaman-son-noqte-ola-bilmez-eziz-mirehmedov
3. https://portal.azertag.az/az/node/1481